# "Bilik günü" təhsil müəssisələrində qeyd olunub

## Bakı Dövlət Universitetində



Senyabrın 15-də Bakı Dövlət Universitetində "Bilik günü" münasibətilə tədbir keçirilib. Rektor, akademik Abel Məhərrəmov universitetin tarixi keçmişi, müasir inkişaf mərhələləri barədə danışıb, Prezident İlham Əliyevin çağırışı ilə iqtisadi potensialın intellekt kapitalına çevrilməsi istiqamətində aparılan islahatlardan bəhs edib.

Bu il ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında respublika ali məktəbləri arasında ən çox tələbə qəbulunun Bakı Dövlət Universitetinin payına düşdüyünü qeyd edən rektor cari ildə BDU-ya 4798 tələbənin qəbul olduğunu, bunun ötən tədris ilindən 526 nəfər çox olduğunu bildirib. Rektor qeyd edib ki, qəbul imtahanı verən tələbələrdən 600 və daha yüksək bal toplayan 299 nəfəri, ümumilikdə isə 500-700 arası bal toplayan 1296 nəfəri Bakı Dövlət Universitetini seçib.

3-cü ixtisas qrupu üzrə 700 bal toplayan Elvin İsayev bildirib ki, Bakı Dövlət Universitetini Şərqin ilk dünyəvi ali məktəbi və regionun ən nüfuzlu universiteti olduğu üçün seçib.

Həmin gün BDU-nun nəzdində fəaliyyət göstərən "Gənc istedadlar" liseyində də "Bilik günü" qeyd edilib. Rektor, akademik Abel Məhərrəmov tədbirdə iştirak edən müəllim və şagirdləri təbrik edib. Rektor builki lisey məzunlarından 2 nəfərin qızıl, 4 nəfərin isə gümüş medala layiq görüldüyünü, məzunların əksəriyyətinin nüfuzlu ali məktəblərə qəbul olduqlarını nəzərə çatdırıb. Liseyin direktoru, professor Qasım Hüseynov yeni dərs ilinin başlanması münasibətilə təbriklərini çatdırıb, liseyin uğurlarından bəhs edib. Tədbirin sonunda 2016-2017-ci tədris ilinin ilk zəngi səslənib.

## Azərbaycan Dövlət Pedaqoji Universitetində



Sentyabrın 15-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "Bilik günü"nə həsr edilmiş tədbir keçirilib.

ADPU-nun rektoru, professor Cəfər Cəfərov tədbirdə çıxış edərək universitetin professor-müəllim heyətini və tələbə kollektivini, xüsusilə də bu il universitetə qəbul olunmuş I kurs tələbələrini və onların valideynlərini "Bilik günü" münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb.

Rektor Cəfər Cəfərov qeyd edib ki, ölkəmizdə pedaqoji kadr hazırlığında baza ali məktəb hesab edilən ADPU 95 illik fəaliyyəti ərzində təhsilin inkişafına mühüm töhfələr verməşdir.

Bu il ADPU-nun Azərbaycan bölməsinə bakalavriat səviyyəsində 2090 nəfər, rus bölməsinə isə 230 nəfər olmaqla bütövlükdə 2320 nəfər tələbənin qəbul edilməsi nəzərdə tutulmuşdu. 1258 nəfər dövlət sifarişi əsasında, 896 nəfər isə ödənişli əsaslarla qəbul olunub. ADPU-nun 5 filialında müxtəlif ixtisaslar üzrə ümumilikdə 675 nəfər tələbə adını qazanıb. Ali təhsilin magistratura səviyyəsində ADPU-ya 18 ixtisas və 19 ixtisaslaşma üzrə 403 nəfər qəbul olunub.

Tədbirdə çıxış edən filologiya fakültəsinin dekanı, professor Buludxan Xəlilov universitetə qəbul olmuş tələbə gəncləri təbrik edərək onlara uğurlar arzulayıb.

Tədbirdə universitetə yüksək balla qəbul olan gənclərə tələbə biletləri təqdim edilib.

## Azərbaycan Memarlıq və İnşaat Universitetində



Sentyabrın 15-də Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) "Bilik günü" münasibətilə tədbir keçirilib. Tədbirdə AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova çıxış edib. Tələbələri, professor-müəllim heyətini yeni tədris ilinin başlanması münasibəti ilə təbrik edən rektor Prezident İlham Əliyevin təhsilə göstərdiyi diqqət və qayğıdan, bu sahədə aparılan köklü islahatlardan, habelə bu il universitetdə aparılan quruculuq işlərindən danışıb. Eyni zamanda rektor builki qəbul prosesinə toxunaraq yüksək balla universitetə daxil olub tələbə adını qazanan abituriyentləri təbrik edib. G.Məmmədova qeyd edib ki, universitetin Azərbaycan və rus bölmələrinin bakalavr pilləsinə 2016/2017-ci tədris ili üçün 23 ixtisas üzrə 1445 abituriyent qəbul olaraq tələbə adını qazanıb. Onlardan 488 nəfəri dövlət sifarişli, 957 nəfəri isə ödənişli əsaslarla təhsil alacaq. Qəbul olunanlar arasında ən yüksək nəticə göstərən Cəmil Mustafazadə (685 bal) Prezident təqaüdünə layiq görülüb.

Magistraturaya qəbul olunan 160 bakalavrdan 114-ü dövlət hesabına, 46 nəfəri isə ödənişli əsaslarla təhsil alacaq.

Sonra Energetika nazirinin müavini Natiq Abbasov tədbir iştirakçılarını "Bilik günü" münasibətilə təbrik edib, onlara uğurlar diləyib.

Tədbirin sonunda universitetə yüksək balla daxil olan gənclərə tələbə biletləri və qiymət kitabçaları təqdim olunub, onlarla xatirə şəkli çəkdirilib.

## Naxçıvan Dövlət Universitetində



15 sentyabr "Bilik günü" münasibətlə keçirilən tədbiri universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq müəllim və tələbələrin yeni tədris ilini təbrik edib, uğurlar arzulayıb. Rektor Azərbaycanda, o cümlədən muxtar respublikada ümummilli lider Heydər Əliyevin təhsil siyasətinin bugünkü uğurlu davamından danışıb. Qeyd olunub ki, 12 fakültə, 56 ixtisasın fəaliyyət göstərdiyi, 5000-dən çox tələbənin ali təhsil aldığı universitetdə yeni tədris ilindən 1068 bakalavr, 114 magistr təhsil alanlar sırasına qoşulub.

Universitetin tədris işləri üzrə prorektoru, dosent Surə Seyid "Kredit sisteminin tələbləri" mövzusunda məruzə edərək xatırladıb ki, Boloniya prosesi 2009-cu ildən etibarən Naxçıvan Dövlət Universitetində uğurla tətbiq olunur.

Tədbirdə birinci kurs tələbələri adından 600-dən yuxarı balla sosial idarəetmə və hüquq fakültəsinin hüquqşünaslıq ixtisasına qəbul olan Nərmin Ağayeva, Qəndab Zeynalova və Sona Əliyeva çıxış edərək ölkədə təhsilə yaradılan yüksək şəraitə, hərtərəfli dövlət qayğısına görə minnətdarlıq ediblər. Sonra 600-dən yuxarı balla universitetə qəbul olan tələbələrə tələbə bileti və "Naxçıvan Ensiklopediyası" təqdim olunub. Tədbir universitetin tarixi inkişaf yolunu əks etdirən filmin nümayişi ilə başa çatıb.

## "Naxçıvan" Universitetində



15 sentyabr "Bilik günü" ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da bayram əhvali-ruhiyyəsi ilə qeyd olunur. Bu münasibətlə "Naxçıvan" Universitetində tədbir keçirilib. Tədbiri universitetin rektoru, professor İsmayıl Əliyev giriş sözü ilə açaraq müəllim və tələbələrin yeni tədris ilini təbrik edib, uğurlar arzulayıb. Rektor Azərbaycanda təhsilin inkişaf strategiyasından, ümummilli lider Heydər Əliyevin təhsil siyasətinin uğurlu davamından danışıb. Qeyd olunub ki, "Naxçıvan" Universiteti yüksək ixtisaslı mütəxəssislər yetişdirən, güclü maddi-texniki bazaya malik, beynəlxalq əlaqələrini günbəgün genişləndirən ali təhsil ocağıdır. 1999-cu ildən fəaliyyət göstərən universitetdə hazırda 4 fakültə, 10 kafedra, 5 şöbə var. 2016-2017-ci tədris ilində universitetdə 1000-ə yaxın tələbə təhsil alacaqdır.

Tədbirdə ali təhsil ocağının tədris işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru İbrahim Kazımbəyli çıxış edərək muxtar respublikada təhsilin inkişafına göstərilən qayğıdan danışmış, müəllim və tələbə heyətini yeni tədris ili münasibətilə təbrik etmişdir.

Tələbələr adından çıxış edən Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Mənsurə Abbasova onlara göstərilən etimadı doğruldacaqlarına əminliyini bildirmişdir.

## Sumqayıt Dövlət Universitetində




15 sentyabr - "Bilik günü" münasibətilə Sumqayıt Dövlət Universitetində tədbir keçirildi. Tədbiri giriş sözü ilə universitetin rektoru, professor Elxan Hüseynov açaraq, professor-müəllim və tələbə heyətini "Bilik günü" münasibətilə təbrik etdi, onlara yeni-yeni uğurlar arzuladı. Tədris ilinə hazırlıqla bağlı universitetdə görülmüş işlər və qarşıda duran vəzifələr barədə danışan rektor 2016/2017-ci tədris ilində universitetə tələbə qəbulunun səviyyəsinin artdığını, əvvəlki tədris illəri ilə müqayisədə birinci kursa qəbul olunmuş tələbələrin daha yüksək bal topladıqlarını diqqətə çatdırdı.

Rektor qəbul imtahanlarında yüksək bal toplamış birinci kurs tələbələrinə tələbə biletləri təqdim etdi. Tələbələr çıxışlarında Sumqayıt Dövlət Universitetini seçdiklərindən fəxarət hissi keçirdiklərini və bu təhsil ocağının adını daim yüksək tutacaqlarını bildirdilər.

"Bilik günü"nə həsr olunmuş tədbirdə universitetin əməkdaşı, şair-dramaturq Əvəz Mahmud Lələdağ SDU-nun tələbəsi adını qazanmış gəncləri təbrik etdi.

Valideynlər adından tarix və coğrafiya fakültəsinə yüksək balla qəbul olmuş Əziz İsayevin anası Könül İsayeva tələbələrə xoş arzularını çatdırdı.

## Qafqaz Universitetində



"Bilik günü" münasibətilə Qafqaz Universitetində ənənəvi tədbir keçirilib.

Rektor, professor Havar Məmmədov qonaqları salamlayıb, tələbə adını qazanan gəncləri təbrik edib, Qafqaz Universitetinin fəaliyyətini mütəşəkkil şəkildə davam etdirdiyini bildirib:

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova Qafqaz Universitetinin Azərbaycan təhsilinə verdiyi töhfələrdən və rayonun ictimai-siyasi həyatındakı fəaliyyətindən danışıb.

Millət vəkili Aydın Mirzəzadə və Təhsil Nazirliyinin nümayəndəsi Sülhəddin Gözəlov çıxışlarında qeyd ediblər ki, Qafqaz Universiteti yüksək təhsil verməklə, ölkəmizi beynəlxalq reytinqlərdə təmsil etməklə yanaşı dövlətimiz üçün layiqli vətəndaş yetişdirir.

Çıxış edən iş adamları universitet - iş dünyası əlaqələrinin vacibliyindən danışıblar.

Qeyd olunub ki, bu il 600-700 arası bal toplayan 229 tələbə Qafqaz Universitetini seçmiş, 399 tələbə isə dövlət sifarişi ilə qəbul olunmuşdur. Pedaqoji ixtisasları 500 baldan yuxarı toplamış 116 tələbə seçmişdir.

## Azərbaycan Texniki Universitetində



Sentyabrın 15-də Azərbaycan Texniki Universitetində (AzTU) 2016-2017-ci dərs ilinin başlanmasına və "Bilik günü"nə həsr edilən təntənəli tədbir keçirilib.

AzTU-nun prorektoru Xalıq Yahudov tələbələri, professor-müəllim heyətini və qonaqları "Bilik günü" və yeni dərs ilinin başlanması münasibətilə təbrik edib.

O, çıxışında bu il Azərbaycan Texniki Universitetinə bakalavriat səviyyəsinə 1803, magistratura səviyyəsinə isə 203 tələbənin qəbul olduğunu bildirib və universitetdə təhsilin təşkilinin təkmilləşdirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, ölkəmizdə ali təhsil sisteminin inkişaf etdirilməsinə göstərilən dövlət qayğısından ətraflı söz açıb.

Tələbə adını qazanan gəncləri təbrik etmək üçün müxtəlif təşkilatlardan tədbirə qatılan qonaqlar da çıxış edərək yeni tələbələrə təhsildə və həyatda uğurlar arzulayıblar.

Tədbir qəbul imtahanlarında yüksək bal toplamış birinci kurs tələbələrinə xatirə hədiyyələri və tələbə biletlərinin təqdim edilməsi ilə başa çatıb.

# "Bilik günü" təhsil müəssisələrində qeyd olunub

## Azərbaycan Dillər Universitetində



Sentyabrın 15-də Azərbaycan Dillər Universitetində (ADU) universitetin rektoru vəzifəsini icra edən professor Dünyamin Yunusov I kurs tələbələri ilə görüş keçirdi.

Tədbiri giriş sözü ilə açan professor Dünyamin Yunusov Azərbaycanda hər bir sahədə müşahidə olunan inkişafın təhsil sektorunda da nəzərə çarpdığını söylədi. O, dövlət başçısının yüksək diqqəti və tapşırıqları əsasında atılan addımların, icra edilən dövlət proqramlarının təhsil sistemində yüksək nəticələrin qazanılmasına xidmət etdiyini bildirdi.

Universitetə qəbul planının ildən-ilə artırıldığını vurğulayan professor 2016-2017-ci tədris ilində 1500 nəfərdən çox tələbənin qəbul olduğunu söylədi.

Tədbirdə ADU-nun tərcümə fakültəsinə (ingilis dili-Azərbaycan dili) 679 balla qəbul olan Aydan Nağıyeva, filologiya və jurnalistika fakültəsinə 668 balla qəbul olan Şəms Səfərəliyevanın anası Vüsalə Səfərəliyeva çıxış etdilər.

Sonda pedaqoji (ingilis dili-fransız dili) fakültənin dekanı, dosent Vəfa Babayeva tələbələri tələbə adını qazanmaları münasibətilə təbrik etdi.

Eyni zamanda, yüksək balla ADU-ya qəbul olan tələbələrə noutbuk hədiyyə edildi, tələbə biletləri təqdim olundu.

## Gəncə Dövlət Universitetində

Sentyabrın 15-də Gəncə Dövlət Universitetində "Bilik günü"nə həsr edilmiş mərasim keçirilib. Dövlət himni səsləndikdən sonra rektor, professor Yusif Yusibov çıxış edərək birinci kurs tələbələrini ali məktəbə qəbul olmaları münasibətilə təbrik edib, onlara cansağlığı və təhsildə uğurlar arzulayıb. Qeyd edib ki, bu il universitetin bakalavr pilləsinə 1299 nəfər, magistraturaya isə 159 nəfər tələbə qəbul olunub. Gəncə Dövlət Universitetində tələbələrin müasir səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılıb. İki tədris binası əsaslı təmir olunaraq tələbələrin istifadəsinə verilib.

Elm və innovasiyalar üzrə prorektor, dosent Pərvin Kərimzadə, humanitar məsələlər üzrə prorektor, dosent Gülsüm Fətəliyeva, pedaqoji fakültənin dekanı, dosent Bayram Apoyev, rektorun baş müşaviri, dosent Asif Cavadov çıxışlarında universitetin nəinki respublikada, ümumiyyətlə regionda fəaliyyət göstərən ali məktəblər arasında təhsil və tədrisin keyfiyyəti, tələbələr üçün yaradılan şəraiti ilə seçildiyini vurğulayıblar.



Yüksək bal toplamış tələbələrdən Züleyxa Həsənova, Nərminə Əlizadə, Aygün Cabbarova, Leyla Həsənova, Zəhra Əliyeva çıxışlarında düzgün seçim etdiklərini, universitetin şərəfini hər sahədə qoruyacaqlarını bildiriblər.

Mərasimin sonunda birinci kursa yüksək balla qəbul olan gənclərin bir qrupuna tələbə biletləri və hədiyyələr təqdim olunub.

## Azərbaycan Universitetində



Sentyabrın 14-də Azərbaycan Universitetinin rektoru Fərid Əhmədov 2016/2017-ci tədris ilində bu ali məktəbə qəbul olmuş tələbələrlə görüşüb.

Rektor görüşdə tələbə statusunun gərgin əməyin nəticəsi olaraq əldə olunduğunu bildirib və bu münasibətlə gəncləri təbrik edib.

Rektor bildirib ki, Azərbaycan Universitetinin məqsədi tələbələrə yalnız müxtəlif ixtisaslar üzrə peşəkar biliklər vermək, vərdiş və bacarıqlar aşılamaq deyil, eyni zamanda onları vətəninə, xalqına, dövlətinə bağlı olan vətəndaşlar kimi yetişdirməkdir. Universitetdə bu istiqamətdə məqsədyönlü iş aparılır.

Fərid Əhmədov tələbələri əlavə biliklər əldə etməyə və universitetin ictimai həyatında aktiv iştiraka səsləyib. Diqqətə çatdırıb ki, universitetdə Tələbə Gənclər Təşkilatı ilə yanaşı müxtəlif maraq qrupları üzrə çoxlu sayda tələbə klubu fəaliyyət göstərir.

Görüşdə humanitar fənlər fakültəsinin dekanı Səfər Məmmədov, sosial iş fakültəsinin dekanı Aygün Musayeva, biznes və iqtisadiyyat fakültəsinin dekanı Vüsal Həsənov, informasiya - kommunikasiya fakültəsinin dekanı Asif Paşayev də çıxış edərək tələbələri təbrik edib, onlara öz tövsiyələrini veriblər.

Görüşün sonunda tələbələrə tələbə biletləri təqdim olunub.

## Heydər Əliyev adına liseydə

Sentyabrın 15-də Bakıdakı Heydər Əliyev adına liseydə "Bilik günü" qeyd edildi. Tədbirdə liseyin müəllim-şagird kollektivi ilə yanaşı valideynlər, KİV nümayəndələri və digər şəxslər iştirak edirdilər.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra tədbiri giriş sözü ilə açan liseyin direktor əvəzi Umud Babaşov "Bilik günü" və yeni tədris ilinin başlaması münasibətilə kollektivi təbrik etdi. Liseyin uğurlarından danışan Umud Babaşov qeyd etdi ki, tədris ocağının məzunları ötən illərdə olduğu kimi bu il də qəbul imtahanlarında yüksək nəticələr əldə edib. Belə ki, liseyi bitirən 127 məzundan 110 nəfəri ali məktəbə qəbul olmaq üçün sənəd verib, onlardan 84 nəfəri respublikamızın, 6 nəfəri isə xaricdəki universitetlərə qəbul olunub. Məzunlardan 13 nəfəri 500-dən, 9 nəfəri 600-dən,



9 nəfəri isə 650-dən çox bal toplamışdır. Bundan başqa, məzunlardan 3-ü Prezident təqaüdünə layiq görülmüşdür. Liseyin şagirdlərinin fənn olimpiadalarında, müxtəlif müsabiqə və yarışlarda da yüksək nəticələr əldə etdiyini bildirən U.Babaşov bu uğurların yeni tədris ilində də davamlı olacağına ümidvar olduğunu bildirdi.

Digər çıxışlardan sonra ilk zəng çalındı. "Məktəb illəri" mahnısının sədaları altında şagirdlər siniflərə daxil oldular.

## Bakı şəhər 113 nömrəli tam orta məktəbində



"Bilik günü"nə həsr olunmuş bayram tədbiri məktəbin həyətində düzənlənmişdi. Yeni dərs ilinin başlanmasına bütün siniflərin şagirdləri sevinsələr də bu günün intizarını daha çox çəkənlər, təbii ki, ilk dəfə bilik məbədinə qədəm qoyan birincilər idi. Səliqəli məktəbli geyimində, əllərində gül dəstəsi, arxalarında məktəbli çantası olan bu fidan balalar mərasimdə edilən çıxışları qulaq asa-asa arabir yanlarındakı valideynlərindən nəsə soruşur, intizarla ilk zəngin çalınmasını gözləyirdilər. Məktəbin direktoru Rövşən Qasımov müəllim və şagirdləri yeni dərs ilinin başlanması və "Bilik günü" münasibətilə təbrik etdi, birincilərin valideynlərinə gözaydınlığı verdi. Şagird aparıcılar elm və biliyin əhəmiyyətindən danışdılar, məktəblərinin uğurlarından söz açdılar. Müxtəlif siniflərdən olan istedadlı şagirdlər məktəb, müəllim haqqında şeirlər söylədilər, mahnılar ifa olundu. Nəhayət, birincilərin intizarla gözlədiyi an gəlib çatdı. Zəng çalındı. Onlar müəllimlərinin əhatəsində oxuyacaqları sinif otaqlarına keçdilər, ilk dərs başladı...

Öyrəndik ki, bu il 113 nömrəli tam orta məktəbdə, təxminən, 270 altıyaşlı birinci sinfə qəbul olunub.

## Bakı şəhər 158 nömrəli tam orta məktəbində

15 sentyabr - "Bilik günü" məktəbdə böyük təmtəraqla qeyd olunub. Məktəbin direktoru Mehriban Ələkbərova tədbiri açaraq "Bilik günü" münasibəti ilə bütün şagirdlərə, xüsusən bu il məktəb həyatına qədəm qoyan birincilərə, onların valideynlərinə təbriklərini çatdırıb. Ötən dərs ilində məktəbin uğurlarından bəhs edən direktor bildirib ki, Azərbaycan bölməsi üzrə 118 məzundan 67, rus bölməsi üzrə 33 məzundan 25 nəfəri ali məktəblərə daxil olub. 4 məzun 600-dən yuxarı bal toplayıb. Məktəbin builki məzunlarından 635 balla ali məktəbə daxil olmuş Sitarə Ağayeva yüksək balla universitet həyatına qədəm qoyduğuna görə doğma məktəbə, təhsil ocağının pedaqoji kollektivinə minnətdarlıq edib.

Yasamal Rayon İcra Hakimiyyətinin nümayəndəsi M.Seyidov, məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Nübar Həmzəyeva, tədbirə dəvət olunmuş qonaqlar yeni tədris ilinin başlanması münasibətilə şagirdləri təbrik edərək onlara uğurlar arzulayıblar. Məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Xuraman Əliyeva əlinə ilk dəfə çanta alan sevimli nəvəsinə həsr etdiyi şeiri söyləyib.



Nəhayət, birincilərin gözlədiyi həyəcanlı an yetişdi. Tədbir ərzində məsum üzlərində sevinc qarışıq həyəcan, bir qədər də çaşqınlıq yaşanan balacalar sinif otaqlarına daxil oldular. Beləliklə, onlar üçün ilk, məktəb üçün isə növbəti dərs ili başladı.

## Masazır kənd 3 nömrəli tam orta məktəbində



Sentyabrın 15-də Abşeron rayonunun Masazır kənd 3 nömrəli tam orta məktəbində "Bilik günü" keçirilib. Tədbirdə Abşeron Rayon Təhsil Şöbəsinin nümayəndəsi, valideynlər və məktəbi bitirən bir qrup məzun iştirak ediblər. Tədbiri giriş sözü ilə açan məktəbin direktor əvəzi İlahə Orucova öncə yeni dərs ilinin başlanması münasibətilə məktəbə ilk dəfə qədəm qoyan birinciləri təbrik edib. Sonra məktəbi bitirən məzunların builki uğurlarından söz açaraq yeni dərs ilində pedaqoji kollektivin qarşısında duran vəzifələrdən danışıb.

Tədbirdə iştirak edən Abşeron Rayon Təhsil Şöbəsinin nümayəndəsi Könül Nəcəfova şagirdləri təbrik edib və ölkə başçısının Azərbaycan təhsilinin inkişafındakı xidmətlərini qeyd edib.

Gülər Quliyeva valideynlər adından məktəbdə şagirdlərin yaxşı oxumaları üçün yaradılan şəraitdən razılıq edib.

Şagirdlər "Bilik günü"nə aid şeir söyləyib, mahnı oxuyub və ədəbi-bədii kompozisiya nümayiş etdiriblər.

Sonda birincilər onlara dərs deyən müəllimlərlə xatirə şəkli də çəkdiriblər.

## Bakı şəhər 288 nömrəli tam orta məktəbində

Bakıdakı Neftçi Qurban adına 288 nömrəli tam orta məktəbdə 15 sentyabr - "Bilik günü" münasibətilə tədbir keçirildi. Məktəbin direktoru Cahangir Süleymanov yeni dərs ilinin başlanması münasibətilə valideynləri, şagirdləri, eləcə də pedaqoji kollektivi təbrik etdi. Bildirdi ki, hazırda rəhbərlik etdiyi təhsil ocağında 2335 şagird biliklərə yiyələnir. Ötən dərs ilində məktəbi bitirən 115 nəfərdən 79-u tələbə adını qazanıb. Onlardan dördü 600-dən yuxarı bal toplayıb. Cari ildə 278 nəfər şagird birinci sinfə qəbul olunub.

Digər çıxış edənlər də "Bilik günü" münasibətilə məktəbliləri təbrik etdilər, onlara uğurlar arzuladılar.

İlk zəng çalındı. 1 "q" sinfində



ilk dərsdə iştirak etdik. Sinif müəllimi Validə Xəlilova bu il ilk dəfə məktəbə qədəm qoyan uşaqları mehribanlıqla salamladı, ilk dərsin "Bilik günü"nə həsr olduğunu bildirdi. Şagirdlərdən Müslüm Kərimli, Lamiyə Xudaverdiyeva, Yusif Alyarov, Zəhra Səfərli, Səidə Səfərova, Zahid Ələkbərov, Ayan Ağayeva və başqaları ana, Vətən, məktəb haqqında şeirlər söylədilər.